# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XATİRƏSİ ANILDI





Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyevin vəfatından 15 il ötür. Gəlimli-gedimli, son ucu ölümlü dünyamızda əbədi qalan nadir ki. O, cismən bu gün bizləri tərk etsə də ruhən Azərbaycan xalqının yanındadır. Çünki bütün həyatı boyu ömrünü şam edərək öz xalqının xoşbəxt gələcəyi uğrunda çalışanlar, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olanlar, dünyadan köçsələr də yaşayırlar.

Böyük öndərimiz Heydər Əliyevin ölümündən ötən illər söylənilənləri bir daha təsdiqlədi.



Yaşlı nəslin yaxşı yadındadır. Ulu Öndər xalqımızın ən çətin vaxtında ikinci dəfə hakimiyyətə qayıtdı. Bəli, qayıtdı və bu qayıdış Azərbaycanı dünya xəritəsindən silinməkdən, parçalanmaqdan, məhv olmaqdan biryolluq xilas etdi. Məhz Ulu Öndərin müdrik siyasəti sayəsində respublikamız böyük nailiyyətlər qazandı, dünya birliyində öz layiqli yerini tutdu.

Heydər Əliyev xalq və dövlət qarşısında misilsiz xidmətləri ilə tarixə öz adını əbədi həkk etdi, hər bir azərbaycanlının qürur mənbəyinə çevrildi. Parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə bütün türk dünyasının böyük oğlu, dünya şöhrətli siyasətçi kimi tanındı.

İllər bir-birini əvəzləyir. Müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyevin əbədiyyətə qovuşmasından 15 il keçir. Ötən illər bir daha göstərdi ki, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan ümummilli lider Heydər Əliyevin ideyaları bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilir. Özü də yüksək səviyyədə, layiqincə.

Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov başda olmaqla rayon rəhbərliyi, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri Ulu Öndərin Siyəzən şəhərindəki abidəsini ziyarət etmiş, abidənin önünə tər çiçək dəstələri düzmüşlər. Anım mərasimində ümummilli liderin xatirəsi böyük sevgi və ehtiramla yad edilmişdir.

Heydər Əliyev-Türk dünyasının böyük oğlu, dünya şöhrətli siyasi xadim. Dövlət müstəqilliyinin bərpasından sonra siyasi sabitliyin bərqərar olunması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması, sosial-iqtisadi sahədə qazanılan böyük uğurlar-bütün bunlar Ulu Öndərin adı və fəaliyyəti ilə bağlıdır.

Ümummilli lider H.Əliyevin nəsillərə nümunə olan zəngin və mənalı həyat yolu, çoxsahəli fəaliyyəti kitablara sığmayacaq qədərdir.

Zaman göstərir və sübut edir ki, Ulu Öndərin yolu, dəst-xətti, göstərdiyi istiqamət bu gün uğurla davam etdirilir. O, bu gün ruhən Azərbaycan xalqının yanındadır. Bir sözlə, nə qədər ki, müstəqil Azərbaycan var, Ulu Öndər Heydər Əliyevin də parlaq xatirəsi daima xalqımızın qəlbində və yaddaşında yaşayacaqdır.



**R. MURADOVA.**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |
| 7 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2019-cu ilin yanvar ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Dağ Quşçu kəndi, kənd tam orta məktəbin binası | 25.01.2019 | 12:30 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Allahyarov Bəybala Ağa oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 11. | Siyəzən Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi əvəzi | Əlibəyov Rəsul Bilal oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

***Qeyd:*** **1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.**

# SƏYYAR QƏBULLAR KEÇİRİLİR

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun səyyar qəbulları davam etməkdədir.



Noyabr-dekabr aylarında rayonun Gilgilçay qəsəbə, Həmyə, Yenikənd, Beşdam və Zarat kənd İƏD-ləri üzrə yaşayış məntəqələrində əhali ilə səyyar görüşləri keçirilmişdir.



Keçirilən görüşlərdə rayon rəhbərliyi ilə birlikdə xidmət təşkilatlarının rəhbərləri də iştirak etmişlər.

Rayonun ayrı-ayrı yaşayış məntəqələrində keçirilən səyyar görüşlər əhali tərəfindən rəğbətlə qarşılanır.

**"ÇIRAQ"**

# KONSTİTUSİYA GÜNÜ QEYD OLUNMUŞDUR

Siyəzən şəhər Heydər Əliyev Mərkəzində Rayon İcra Hakimiyyəti tərəfindən 12 Noyabr-Konstitusiya günü münasibətilə dəyirmi masa təşkil edilmişdir. Tədbirdə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısının müavini-ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova, rayonun idarə, müəssisə və təşkilatlarında çalışan işçilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açılmışdır. Daha sonra Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Bəxtiyarova bayram münasibətilə iştirakçıları təbrik etmiş və Konstitusiya günü ilə əlaqədar ətraflı çıxış etmişdir. T. Bəxtiyarova dövlət və cəmiyyətin həyatında Konstitusiyanın rolundan, ümummilli lider Heydər Əliyevin sədrlik etdiyi komissiya tərəfindən hazırlanmış müstəqil dövlətimizin ilk əsas qanununun cəmiyyət və dövlətin gələcək inkişafının təməli olduğundan bəhs etmişdir. Azərbaycanda bu gün də ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyətinin Azərbaycan Respublikası Konstitusiyasının ehtiva etdiyi mütərəqqi dəyərlərə sadiqlik, onların qorunub saxlanılması və inkişaf etdirilməsi üzərində qurulduğundan, ölkəmizdə yaradılmış əlverişli ictimai, siyasi, hüquqi və iqtisadi mühitin bütün xalqımızda Azərbaycanın parlaq gələcəyinə olan inamı bir daha artırdığından iftixarla söhbət açmışdır.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısı aparatı Hüquq şöbəsinin məsləhətçisi Gülnar İlyasova Konstitusiya günü ilə bağlı geniş məruzə ilə çıxış etmişdir. Daha sonra Rayon İcra Hakimiyyəti başçısı aparatının Böyük məsləhətçisi-Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Həsənağa Əliyev, Heydər Əliyev Mərkəzinin direktoru Ramilə Seyidova və Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru Şəms Hüseynova çıxış etmişlər.

Tədbirin sonunda Konstitusiya günü ilə əlaqədar videofilmə baxış keçirilmişdir.

**G. Abdullayeva,**
**Heydər Əliyev Mərkəzinin əməkdaşı.**

# AZADLIĞA GEDƏN YOL

15.11 2018-ci il tarixində Heydər Əliyev Mərkəzində Xalqın istiqlal mübarizəsinin əsas mərhələlərindən biri olan 17 noyabr-Milli Dirçəliş Günü ilə əlaqədar olaraq "Azadlığa gedən yol" adlı açıq dərs keçirilmişdir.

Dərs Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə açılmışdır. Mərkəzin direktoru R. Seyidova sıxış edərək bildirdi ki, 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M. Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmadılar, həm də onları cismən öldürür, diri-diri yandırırdılar.

Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M. Qorbaçov və onun ətrafı heç bir reaksiya vermədilər. Ermənilər bununla da kifayətlənmədilər. 1988-ci ilin fevralın əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində iğtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdılar.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskva, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlar bunu sübut edirdi. Ancaq xalq gördü və başa düşdü ki, nə Moskva, nə də Azərbaycanın o vaxtkı rəhbərliyi heç bir qəti tədbir görmək istəmir. Belə olduqda, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V. İ. Leninin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər.

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanılmasında əsas amil sayılır.

Tədbirdə şəhər 2 saylı tam orta məktəbin tarix müəlliməsi S. Əsədullayeva geniş çıxış etmişdir Daha sonra Mərkəzin baş fond mühafizi N. Müxtəsənova və G. Abdullayevanın çıxışları dinlənildi. Dərs şagirdlərə verilən sual-cavabla davam etdirildi. Sonda Dirçəliş Günü ilə əlaqədar qısa filmə baxıldı.

**"Çıraq"**

*Mikayıl Müşfiq-110*

# BÖYÜK ŞAİR MƏHƏBBƏTLƏ ANILDI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 may 2018-ci il tarixli sərəncamı ilə ölməz şairimiz Mikayıl Müşfiqin 110 illiyinin keçirilməsi Bakı şəhərində, eləcə də respublikamızın bütün bölgələrində qeyd edildi.



Siyəzən rayon Mədəniyyət Mərkəzində də XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, 30-cu illər repressiyasının qurbanı M. Müşfiqin 110 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi, Xaçmaz Regional Mədəniyyət idarəsi və Cabir Novruz Mədəniyyət Fondunun birgə təşkilatçılığı ilə keçirilən bu tədbirdə ölməz şairin həyat və yaradıcılığı haqqında danışılıb, görkəmli poeziya ustasının ədəbiyyatımızda tutduğu mövqedən, lirikasının səciyyəvi cəhətlərindən söhbət açıldı.

Tədbirin aparıcısı-"Cabir Novruz" Mədəniyyət Fondunun vitse-prezidenti, şair Nəcməddin Mürvətov yubiley mərasimini açaraq gələn qonaqları və tədbir iştirakçılarını salamladı.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının N. Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Məmməd Əliyev, Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev çıxışlarında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə bu il şairin 110 illik yubileyinin dövlət səviyyəsində qeyd edildiyini xüsusi vurğuladılar. Qeyd edildi ki, M. Müşfiqin şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir. Xalqı, vətənini sevən şairlər isə heç zaman ölmür və unudulmurlar.



Çıxışlar bir-birini əvəzlədi. Söz tədbirdə iştirak edən əməkdar artistlərə verildi. Rəşad İlyasov, Elza Seyidcahan, Hüsniyyə Mürvətova və tanınmış muğam ustası Mirələm Mirələmovun çıxışları yüksək zövqlə, alqışlarla qarşılandı.

**R. MURADOVA,**

*Şəhidlər ölmürlər*

# "SONUNCU UÇUŞ" FİLMİNİN TƏQDİMATI KEÇİRİLMİŞDİR

Onun haqqında ilk dəfə Qarabağ müharibəsinin qızğın vaxtlarında eşitmişdim. Həmyerlimiz olan bu gənc pilotun döyüşlərdə göstərdiyi şücaət, peşə bacarığı, torpaq, Vətən sevgisinin sorağı dildən-dilə düşmüşdü. Qəhrəmanlığı hər birimizin qəlbini sonsuz qürur hissiylə dolduran bu pilot kim idi?



Feyruz Xanbala oğlu Cəlilov 28 may 1957-ci ildə Siyəzən rayonunun Məşrif kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1978-ci ildə Kremençuq Mülki Aviasiya Təyyarəçilik məktəbinə daxil olmuş və 1981-ci ildə həmin məktəbi bitirmişdir. Əmək fəaliyyətinə Zabrat aviamüəssisəsində başlamışdır. 1986-cı ildə istehsalatdan ayrılmadan Kiyev Mülki Aviasiya Mühəndisləri İnstitutuna daxil olmuş və 1992-ci ildə bu ali təhsil ocağını bitirmişdir.

Feyruz Cəlilov Qarabağ müharibəsi iştirakçısıdır, Kəlbəcər və Ağdərə rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. 1993-cü il avqustun 31-də ağır döyüşlərin birində Qubadlıda mənfur düşmənlərimiz tərəfindən Feyruz Cəlilovun idarə etdiyi Mi-24 tipli helikopter vurulmuş və uçuş heyəti həlak olmuşdur.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə həmyerlimiz kapitan Feyruz Xanbala oğlu Cəlilov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fərmanı ilə ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

Bu günlərdə Siyəzən şəhər Mədəniyyət Mərkəzində Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman pilot Feyruz Cəlilov haqqında İctimai televiziya tərəfindən çəkilmiş "Sonuncu uçuş" adlı sənədli filmin təqdimatı keçirilmişdir. Ekran əsərində şəhidin həyat yolundan, qəhrəmanlığından bəhs olunur. Döyüş yoldaşlarının, onu yaxından tanıyan dost-tanışların ürək sözləri diqqətə çatdırılır.

Filmin təqdimatında şəhidin ailə üzvləri, Siyəzən Rayon İcra Hakimiyyətinin məsul işçiləri, dostları, İTV kanalının əməkdaşları, gənc pilotlar, hərbçilər və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Təqdimat mərasimində xüsusi nəzərə çatdırılmışdır ki, Azərbaycan Ordusu Beynəlxalq reytinqinə görə dünya miqyasında güclü ordular sırasındadır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə və Bakının işğaldan azad edilməsinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad silahlı qüvvələrimizi dünyaya nümayiş etdirdi. Dövlət başçısı cənab İlham Əliyev paradda bəyan etdi ki, gün gələcək işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan Bayrağı Azadlıq Meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

**R. MURADOVA.**

# TƏBRİK EDİRİK!

Bu yaxınlarda müəllimlərin və neftçilərin peşə bayramlarını qeyd etdik. Nə xoş ki, ənənəyə uyğun yenə sevindirici xəbərlər aldıq. Möhtərəm cənab Rrezidentimiz İlham Əliyevin Sərəncamı ilə həmyerlilərimizdən bir neçəsi təltif olundu.

Onların üçünü də şəxsən tanıyıram. Hər biri xüsusi nüfuz sahibidir. Necə deyərlər, çevrələrinin etimadını qazanmış insanlardır. Əlbəttə, ilk növbədə sənətlərinə olan xüsusi sevgilərinə, fəaliyyət göstərdikləri iş sahəsinə olan məsuliyyətli münasibətlərinə görə. Bu şəxslər çalışdıqları sahəni ürəkdən sevirlər. Daim yüksək nəticələr əldə etmək barədə düşünürlər, bir qayda olaraq, buna nail ola bilirlər. Və gəlin açıq etiraf edək ki, bütün bunlar heç də hər kəsə müyəssər ola bilən iş deyil. Biri bacarığına görə fərqlənir, biri ixtisasını daha üstün bilir, biri ünsiyyəti ilə fərqlənir. Yəni, bir insanı səciyyələndirən fərqli çox şeylər ola bilir. Amma bütün bu xüsusiyyətləri özündə cəmləşdirmək, ətrafının xüsusi rəğbətini qazanmaq, bax, bu, heç də asan məsələ deyildir.

Gəlin başlayaq: Zülfüqar Səlimov-"Siyəzənneft" NQÇİ-nin rəisi. Artıq bir neçə ildir ki, o, Neftqazçıxarma kimi iri bir sahəyə bacarıqla rəhbərlik edir. Kollektiv onun rəhbərliyi altında Siyəzən üçün strateji önəm daşıyan sahənin inikşaf etdirilməsindən ötrü var qüvvəsi ilə çalışır. Qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlir, altını cızaraq bir daha qeyd etmək istərdim ki, Siyəzən üçün xüsusi önəm daşıyan bu sahənin bundan sonra da hələ uzun müddətə yaşamaq imkanlarının qorunub saxlanılmasına çalışırlar. Müəssisənin istehsal göstəriciləri qorunub saxlanılır, bir qayda olaraq tələblərə uyğun olur. Və şübhəsiz, kollektivin rəhbəri kimi Zülfüqar Səlimovun bu işdə əməyi xüsusi qeyd olunmalıdır.

Sultanova İlhamə Qəribağa qızı-Siyəzən şəhər 3 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Düzünü desəm bu xəbəri eşidəndə qətiyyən təəccüb etmədim. Dərhal düşündüm, belə də olmalıydı. Axı, insan çalışdığı sənəti nə qədər sevər? Bax, bu sualın dürüst cavabını almaq istəyirsinizsə, onda İlhamə müəllimənin ya şagirdi olmalısınız, ya da onunla birgə müəllim işləməlisiniz. Nümunəvi davranışı, tələbkar münasibəti onu həmişə uğurlu edir. İstər şagird olsun, istərsə də müəllim, hamı onun hörmətini saxlayır.

Onun bir başqa fərqli keyfiyyətini də qeyd etmək istərdim. Gözəl əl qabiliyyəti var. Hazırladığı əl işləri muzey əşyası qədər qiymətlidir. Ciddiliyi ilə xüsusi seçilir. Hiss olunur ki, ətrafı da bunu nəzərə alır, həm də, sözün həqiqi mənasında, məcburən. Şagirdlərə münasibətində, ciddiliyini qoruyub saxlamaq şərtilə, çox mehriban yanaşma tərzi var. Ona görə, dərs dediyi şagirdlərin də ona hörməti və sevgisi təbiidir. Ümumiyyətlə, bunu müşahidə etmək üçün bircə dəfə 3 saylı tam orta məktəbdə olmağınız kifayət edər.

İlhamə müəllimənin uğurları lap çoxdur. Amma inanırıq ki, onların sayı bundan sonra da davamlı olacaq, həm də artan xətt üzrə.

Digər bir qəhrəmanımız Vahid Məmmədovdur. Cənab Prezidentimizin Sərəncamı ilə o, "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Vahid müəllim ixtisasca riyaziyyatçıdır. Bu gün ona Siyəzənin ən yaxşı riyaziyyatçısı da demək olar. Amma eyni zamanda, onun digər mühüm məziyyətlərindən biri kimi mükəmməl nitq qabiliyyətinə malik olmasını xüsusi qeyd etmək istərdim. Müəllim üçün bu iki keyfiyyət olduqca mühümdür. Onun hər ikisini bir şəxsin timsalında daşımaq-bax, bu, artıq üstünlük göstəricisidir. Vahid müəllimin keyfiyyətləri bunlarla bitmir. O, həm də gözəl ailə başçısı, gözəl dostdur, etibarlı yol yoldaşıdır. Hərtərəfli baxışa malikdir. Bilirsiniz, olur ki, bəzən bir insan muğamı sevir, estrada sənətinə biganədir, futbolu sevir, voleybola nifrət edir və s. Bu baxımdan mən onda bir bütövlük görürəm. Ona bundan sonra da uğurlar arzulayırıq.

**İ. İLYASOV.**

*Nəcməddin Mürvətov-65*

# İNSANLIĞA, HAQQA-ƏDALƏTƏ ÇAĞIRAN POEZİYA

Adı, imzası bu günkü poeziyamızdı güclü, sayılıb-seçilən yazarlarla bir sırada çəkilən istedadlı şair, nəinki rayonda, bütün bölgədə tanınan nümunəvi bir təhsil ocağının rəhbəri, Əməkdar müəllim, Tərəqqi medalına layiq görülmüş dəyərli ziyalı, Cabir Novruz Fondunun vitse-prezidenti. Bu siyahını bir qədər də artırmaq olar. Və nəhayət əvəzsiz dost, tələbkar oxucu, gözəl ailə başçısı, istəkli baba. Bütün bunlar haqqında Siyəzən Mədəniyyət Mərkəzində keçirilən yaradıcılıq gecəsində ətraflı danışıldı. Tədbiri ömrün bu vədəsində şairin öz oxucularına hesabat gecəsi kimi dəyərləndirmək də yerinə düşər. Rayonun rəhbər işçiləri, görkəmli elm adamları, şair və yazıçılar, incəsənət xadimləri, tanıyanlar-bir sözlə, hamı bu gözəl tədbirin sehrində idilər. Çox sanballı mərasimləri yola salan zaldasa adam əlindən tərpənmək mümkün deyildi. Bax, budur elin öz ziyalı oğluna, şair övladına verdiyi dəyər!

20-yə yaxın kitab. O, bu kitabların araya-ərsəyə gəlməsinə bir ömür xərclədi. Bu kitabların hər misrasına, hər cümləsinə ürəyinin sevgisini, torpaq, Vətən, ana məhəbbətini hopdurmağı bacardı. Bəlkə də elə bu səbəbdəndir ki, onun poeziyası bir qayda olaraq öz oxucusunu insanlığa səsləyir, haqqa-ədalətə çağırır.

Şeir dünyasına ilk dəfə balaca bir kənddən, Yanıq Ələzdən boylanan Nəcməddin Mürvətovun poeziya aləminin sorağı sonralar baş kəndimiz Bakıyadək uzandı. Azərbaycan Yazıçılar Birliyində, ədəbi-bədii mühitdə tanındı, səsi mötəbər tədbirlərdən gəldi. O, həm də ölkənin ən dəyərli insanlarını-alimləri, yazarları, incəsənət ustalarını öz evimizdə, öz ocağımızda-Siyəzəndə bizimlə görüşdürdü. Özü tanınmaqla yanaşı, Siyəzənimizi də dəyərli ziyalılara tanıtdı. Neçə-neçə gənc poeziya dünyasında bələdçi oldu, kitabının işıq üzü görməsinə çalışdı. Bu məqamda bir məsələni söyləməyi özümə borc bilirəm. Nəcməddin müəllimi digərlərindən fərqləndirən başlıca cəhət məhz onun torpaq, el-oba, yurd təəssübkeşliyidir

Dəyərli ziyalımızı, gözəl şairimizi-N. Mürvətovu çoxsaylı oxucularımız adından da təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları, can sağlığı arzulayırıq, üzü yetmişə, səksənə, doxsana, yüzə doğru addımlamasını diləyirik.

**R. MURADOVA.**

*Ölkəmizi tanıyaq*

# OLDUQCA YADDAQALAN VƏ MARAQLI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə 2014-cü ildən məktəblilər "Ölkəmizi tanıyaq" devizi altında tur-aksiyalarda iştirak edirlər. Artıq şagirdlərimiz bir neçə dəfə respublikamızın cənub, qərb, şimal-qərb bölgələrinə və Naxçıvan Muxtar Respublikasına səfər etmiş, ölkəmizin tarixi yerləri, adət-ənənələri, sənaye və təsərrüfat sahələri, görkəmli şəxsiyyətləri ilə tanış olmuşlar.

2018-ci il noyabrın 17-dən 21-nə kimi baş tutan tur-aksiya Qəbələ-Şəki-Zaqatala rayonlarını əhatə etmişdir. Ənənəvi olaraq tur iştirakçıları ilə Rayon İcra Hakimiyyətində görüş keçirilmişdir. Onlar yola düşməzdən əvvəl ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər çiçəklər düzmüşlər.

Tur iştirakçıları Qəbələdə qədim Alban məbədi və Çuxur Qəbələ Tarix və Mədəniyyət qoruğunda olmuş, şəhərin görməli və tarixi yerləri ilə tanış olmuşlar. Daha sonra Şəki və Zaqatala rayonlarına yola düşmüşlər.

Şagirdlər həmişə görmək arzusunda olduqları Şəki Xan sarayında olmuşlar. Saraydakı möhtəşəm rəsmlər, otaqların təyinatı barədə məlumatlar almışlar. Daha sonra Yuxarı Karvansaray, Aşağı Kapvansaray, "Abad" Keramika və tətbiqi sənət Mərkəzi ilə tanışlıq böyük maraq doğurmuşdur.

Zaqatalanın gözəl təbiət mənzərələridə oduqcu valehedici idi. Burada Heydər Əliyev Mərkəzi, Tarix mədəniyyət qoruğu ilə tanışlıq uşaqlarda böyük maraq oyatdı. Tur günlərində Ağdaş, Tovuz, Göy-göl və Füzuli rayonlarından gəlmiş iştirakçılarla Karvansaray mehmanxanasında yerləşdirilmişdik. Uşaqlarımızla həmin rayonlardan olan şagirdlər arasında xoş münasibət yaranmışdı. Hələ Siyəzən şəhər 2 saylı tam orta məktəbin şagirdləri Rəfiqə və Həsrətin ad günlərini də orada keçirtdik.

Qeyd etməliyəm ki, Seyidxanım müəllim və Tamerlan müəllim, Sevda həkim, İcra Hakimiyyətinin nümayəndəsi Aqil Əbdülov, bələdçi Seymur tur boyu şagirdlərə son dərəcə mehriban və qayğıkeş münasibət göstərirdilər.

Bütün iştirakçılar, eyni zamanda onların valideynləri bu gözəl tədbirə görə möhtərəm Prezident İlham Əliyevə , həmçinin Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynova təşəkkür edirlər.

**Cəfər BAĞIROV,**
**Metodkabinənin müdiri, Respublikanın Əməkdar müəllimi.**

# HEYDƏR ƏLİYEVİN TARİXİ İRSİ ÖYRƏNİLİR

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır.

Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik kəlamı dillər əzbəri olmuş, hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir. Çox təəssüflər olsun ki, Heydər Əliyev bu gün bizim aramızda yoxdur, 12 dekabr 2003-cü ildə əbədiyyətə qovuşub. Ulu Öndərin Anım Günü ilə əlaqədar olaraq Siyəzən rayon Heydər Əliyev Mərkəzində bir çox tədbirlər, açıq dərslər, dəyirmi masalar və ekskursiyalar təşkil edilmişdir. Siyəzən Rayon Heydər Əliyev Mərkəzin əməkdaşları 2, 3, 9 saylı uşaq bağçası-körpələr evində "Əbədiyaşar dahi", Ürəklərdə yaşayan lider", "Heydər Əliyevin uşaqlara qayğısı" adlı tədbirlər keçirmişlər.

6 dekabr 2018-ci il tarixində ümummilli lider Heydər Əliyevin Anım günü ilə əlaqədar Heydər Əliyev Mərkəzində Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbin və Ş. İsmayılov adına 3 saylı tam orta məktəbin 10-cu sinif şagirdlərinin iştirakı ilə "Heydər Əliyevin yaşayan və yaşadan ideyaları" adlı tədbir keçirilmişdir. İlk olaraq Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən foto stendlərə baxış keçirilmişdir. Sonra Mərkəzin direktoru Ramilə Seyidova Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan tarixindəki rolu barədə geniş məruzə ilə çıxış etmişdir. Sonra "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda məruzələr və şagirdlərin ifasında şeirlər dinlənilmişdir. Sonda "Liderlik Fenomeni" sənədli filmi nümayiş olunmuşdur.

**Ramilə SEYİDOVA,**
**Heydər Əliyev Mərkəzinin direktoru.**

# İTMİŞDİR

Siyəzən rayonu Qozağacı kənd sakini Musa Bürcəli oğlu Zülfüqarovun adına Siyəzən rayonu Aqrar İslahat Komissiyasının 1998-ci il 16 fevral tarixli 35-11 nömrəli qərarı ilə verilmiş JN:0018 kod 30506038 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Siyəzən şəhəri, Sabir küçəsi ev 80-da yaşayan Əliyeva Səadət İsmayıl qızına məxsus ƏMDK yanında DƏDRX-nin Sumqayıt Ərazi idarəsindən verilmiş fərdi yaşayış evinə məxsus çıxarış itdiyi üçün etibarsız sayılır.


Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri,
Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 3976
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83